# Görkəmli şərqşünas Rüstəm Əliyevin 90 illiyi qeyd edilib

2019-cu il iyulun 3-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli şərqşünas alim, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Rüstəm Əliyevin 90 illik yubileyi ilə əlaqədar elmi sessiya keçirilib.






Tədbirdən öncə Şərqşünaslıq İnstitutunun əməkdaşları Rüstəm Əliyevin İkinci Fəxri Xiyabanda məzarını ziyarət ediblər.

AMEA-nın əsas binasının 2-ci mərtəbəsindəki akt zalında keçirilən yubiley tədbirini giriş sözü ilə AMEA İctimai elmlər bölməsinin akademik katibi, akademik **Nərgiz Axundova** açaraq, Rüstəm Əliyevin Azərbaycan elmini, Azərbaycan şərqşünaslığını dünya miqyasında tanıdan alimlərdən olduğunu qeyd edib. N.Axundova Rüstəm Əliyevin keçdiyi elm yolunun hər bir alimə bir örnək olduğunu vurğulayaraq, onun gələcək nəsillər üçün böyük bir elmi miras qoyduğunu söyləyib.

Daha sonra AMEA Humanitar elmlər bölməsinin akademik katibi, akademik **Teymur Kərimli** çıxış edərək, Rüstəm Əliyevin ilk növbədə bir Azərbaycanşünas alim olduğunu qeyd edib və onun nizamişünaslıqda xidmətlərinin əvəzsiz olduğunu vurğulayıb.

Sonra məruzələr başlanılıb.



“Rüstəm Əliyevin həyatı və elmi fəaliyyətinin əsas istiqamətləri” mövzusunda məruzə edən Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik **Gövhər Baxşəliyeva** dünya şöhrətli şərqşünas Rüstəm Əliyevin Azərbaycan xalqının elm və mədəniyyət tarixində tək-tək parlayan zəkalardan olduğunu, orta əsrlər İran, Azərbaycan, ərəb və türk filologiyası sahəsində yüksək intellektə malik bu görkəmli alimin farsdilli ədəbiyyatın tədqiqi və nəşri, mənbəşünaslıq və mətnşünaslıq sahələri üzrə apardığı tədqiqatların onun istedadının, zəhmətkeşliyinin və elmə məhəbbətinin bəhrəsi kimi yarandığını qeyd edib.

G.Baxşəliyeva bildirib ki, fenomenal yaddaş, sərbəst düşüncə tərzi, yüksək intellekt, dilləri öyrənmək məharəti Rüstəm Əliyevin



elmi fəaliyyətində böyük rol oynamışdır. Rus, fars, ərəb, ingilis, türk dillərini mükəmməl bilməsi ona Şərq və Qərb ədəbiyyatlarını orijinaldan oxumaq imkanı verirdi. Hər bir mətnin, mövzunun mahiyyətini, fəlsəfi mənasını dərindən duymaq, tez qavramaq, azad duyum və düşüncə tərzinə, dərin hiss və ağıla, yüksək natiqlik istedadına malik olmaq, dünyanın müxtəlif ölkələrində elmi və siyasi mövzularda mühakimələrinin qətiliyi, məntiqiliyi, cəsarəti və pafosu ilə dinləyicilərini heyran etmək qabiliyyəti Rüstəm Əliyev fenomenini səciyyələndirən xüsusiyyətlər kimi ona Şərqdə və Qərbdə böyük şöhrət qazandırmışdı.




Məruzədə qeyd edilib ki, alimə şöhrət gətirən, onu Şərq və Qərb aləmində geniş tanıtdıran Firdovsinin "Şahnamə" (IV,V.VIII.c.), Ömər Xəyyamın "Rübailər", Sədi Şirazinin "Bustan" və "Gülüstan" əsərlərinin elmi-tənqidi mətninin tərtibi, tərcüməsi və tədqiqi olmuşdur. Sonralar alim Nizaminin "Sirlər xəzinəsi"nin elmi-tənqidi mətninin və "Fəzlullah Nəimi Təbrizi və İmadəddin Nəsimi Şirvaninin fars divanı"nın tərtibi kimi mühüm elmi işlərin öhdəsindən gəlmişdir.

Şərqşünaslıq İnstitutu İran filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru **Məsiağa Məhəmmədi** "Dünya miqyaslı iranşünas" mövzusunda məruzəsində görkəmli şərqşünas alim Rüstəm Əliyevin elmi yaradıcılığından, onun İran və farsdilli Azərbaycan ədəbiyyatının ən möhtəşəm əsərlərinin elmi-tənqidi mətnlərinin hazırlanmasında, rus və Azərbaycan dillərinə tərcüməsində müstəsna xidmətlərindən danışıb. Rüstəm Əliyevin fenomenal istedadı sayəsində hələ gənc yaşlarından başlayaraq, dünya şərqşünaslığının nüfuzlu mərkəzlərində öz sözünü dediyini, Azərbaycanı, Azərbaycan elmini yüksək ləyaqətlə təmsil etdiyini vurğulayan M.Məhəmmədi görkəmli alimi XIX əsrin ikinci yarısında və XX əsrin ilk onilliklərində çiçəklənmə dövrünü yaşayan klassik şərqşünaslıq məktəbinin parlaq davamçısı kimi dəyərləndirib: "Filoloji mahiyyətli bu məktəbin əsasını Şərq dillərinə dərindən bələdlik, əlyazma nüsxələrinin tekstoloji tədqiqi və əksər hallarda tərcüməsi, bu zəmində tarixi-ictimai reallıqlar, fəlsəfi-əxlaqi konsepsiyalar və bədii sistemlər haqqında mülahizələrə keçid təşkil edirdi. Belə bir məktəbin ənənələrinə söykənən Rüstəm Əliyev təbii ki, geniş profilli bir şərqşünas idi və Peterburqda təhsil alması da buna əlverişli şərait yaratmışdı. Buna baxmayaraq, Rüstəm Əliyev ilk növbədə iranşünas idi, onun dar ixtisası fars dili və ədəbiyyatı, eləcə də bütövlükdə farsdilli ədəbiyyat idi".




Rüstəm Əliyevin bu sahədə ən mühüm və ən geniş tədqiqatlarının dahi İran şairi Sədi Şirazi yaradıcılığı ilə bağlı olduğunu deyən M.Məhəmmədi alimin həm namizədlik, həm də doktorluq dissertasiyalarının Sədi irsinə, konkret olaraq, onun iki şah əsəri «Gülüstan» və «Bustan»a həsr olunduğunu, həm də bu əsərlərin təkcə elmi-tənqidi mətnlərini hazırlamadığını, eyni zamanda onların məzmunu və poetikası barədə ciddi elmi mülahizələrini ortaya qoyduğunu vurğulayıb.

M.Məhəmmədi həmçinin Rüstəm Əliyevin tanınmış şərqşünas M.N.Osmanovla birlikdə Kembric nüsxəsi əsasında Ömər Xəyyamın rübailərini ruscaya tərcümə etməsini və farsca mətn, müqəddimə və şərhlərlə birlikdə nəşr etdirməsini xatırladıb, alimin iranşünaslıq fəaliyyətinin ən parlaq səhifələrindən birinin Fürdovsinin «Şahnamə»sinin elmi-tənqidi mətninin 9 cildlik Moskva nəşrinin 4,5 və 8-ci cildlərini hazırlaması olduğunu vurğulayıb. Çıxışda həmçinin Rüstəm Əliyevin iranşünaslıq fəaliyyətinin onun farsdilli Azərbaycan ədəbiyyatı, o cümlədən, Nizami, Nəsimi və Füzuli irsi üzərində tədqiqatları ilə tamamlandığı qeyd edilib. Bildirilib ki, Rüstəm Əliyev 1974-cü ildə Tehranda İmadəddin Nəsimi və Fəzlullah Nəiminin fars divanını nəşr etdirmiş, 1958-ci ildə Füzulinin «Leyli və Məcnun»u, 1959-cu ildə isə qəzəlləri Rüstəm müəllimin ön söz və izahları ilə Moskvada rus dilində nəşr edilmişdi. Çıxışda həmçinin Əbubəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsərinin müqəddimə və şərhlərlə rus dilinə tərcüməsindən də söz açılıb.

AMEA Ədəbiyyat İnstitutu Qədim dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor **İmamverdi Həmidov** “Rüstəm Əliyev ərəbşünas kimi” mövzusunda məruzəsində Rüstəm Əliyevin ərəbşünaslıq sahəsində fəaliyyətindən danışıb. İ.Həmidov bildirib ki, əsas elmi fəaliyyət sahəsi iranşünaslıqla – farsdilli ədəbiyyatın tədqiqi, mətnşünaslıq məsələləri ilə bağlı olan prof. Rüstəm Əliyev ərəb dilində yaradılmış və təsiri dünya mədəniyyətinə keçmiş sivilizasiyanı sadəcə öyrənməklə kifayətlənməmiş, eyni zamanda bir ərəbşünas kimi fəaliyyət göstərmişdir. Rüstəm müəllimin ərəbşünaslıq işləri müxtəlif istiqamətlərdə olmuşdur: ərəb ədəbiyyatına aid yazıları, iranşünas kimi apardığı tədqiqatlardakı müvafiq problemlər haqqında bəhs etdikdə ərəb ədəbiyyatı məsələlərinə yer verməsi, mətnşünaslıq işlərində və filoloji tərcümələri yerinə yetirdikdə nəşrlərə yazdığı izahları, ABŞ, ərəb ölkələri və keçmiş Sovet İttifaqının müxtəlif universitetlərində ərəb ədəbiyyatı tarixinə aid oxuduğu mühazirələri, ərəb filologiyası ilə bağlı keçirilən elmi müzakirə və yığıncaqlardakı çıxışları, ərəb ədəbiyyatının ayrı-ayrı dövrləri sahəsində aspirant və dissertantlara elmi rəhbərliyi. Çıxışda professor Rüstəm Əliyevin ərəb filologiyasına ciddi marağının hələ Leninqrad Dövlət Universitetində təhsil aldığı illərdən başladığı qeyd edilib. R.Əliyev akad. Kraçkovskinin tələbəsi kimi ərəbşünas Rozenin ənənəsini davam etdirmiş və L.Z. Pisarevski ilə birgə universitet tələbələri üçün «Ərəb müntəxəbatı»nı hazırlamışdır. İ.Həmidov çıxışında tanınmış ərəbşünsların və ərəb alimlərinin Rüstəm Əliyevin bu sahədəki fəaliyyəti ilə bağlı söylədikləri fikirləri də tədbir iştirakşılarının diqqətinə çatdırıb. Çıxışının sonunda İ.Həmidov qeyd edib ki, ərəbşünas R.Əliyev iranşünas R.Əliyevi tamamlamış və onun şərqşünaslıq sahəsində nüfuzunu artırmışdır. Onun bu fəaliyyəti Azərbaycan – ərəb ədəbi-mədəni əlaqələrinin genişlənməsinə təsir göstərməklə bərabər, Azərbaycanda ərəbşünaslığın inkişafına xeyli kömək etmişdir.




Məruzələrdən sonra Rüstəm Əliyevin Moskvada yaşayan oğlu Med Əliyevin videomüraciəti tədbir iştirakçılarına çatdırılıb.

Daha sonra akademik **Möhsün Hağısoylu**, professorlar **Mehdi Kazımov, Vilayət Cəfərov, Rəhim Əliyev, Mahirə Quliyeva, Şəfəq Əlibəyli, Şahin Fazil** çıxış edərək Rüstəm Əliyevlə bağlı xatirələrini danışıblar.



Rüstəm Əliyevin ailəsi adından yaxın qohumu Əli Həsənov çıxış edərək, yubiley tədbirinin təşkilatçılarına öz təşəkkürünü bildirib.

**Vüqar Məmmədov,**
*filologiya üzrə fəlsəfə doktoru*